*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 14 sentyabr tarixli 327 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı təqdim etdikləri layihələrin qrant məbləğinin müəyyən edilməsinə dair meyarlar və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddi

## 1. Ümumi müddəalar

1.1. Bu Meyarlar "Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi və "Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli 674 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli 1317 nömrəli Fərmanının 7.3-cü bəndinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra - Agentlik) tərəfindən qeyri-hökumət təşkilatlarının (bundan sonra - QHT) qrant maliyyələşməsi ilə bağlı təqdim etdikləri layihələr (bundan sonra - layihə) üzrə qrant məbləğinin müəyyən edilməsi meyarlarını və hər bir mövzu üzrə qrant məbləğinin yuxarı həddini müəyyən edir.

1.2. Bu Meyarlar QHT-lərin qrant müsabiqəsinə təqdim etdikləri layihələrin qrant maliyyələşməsi ilə bağlı Agentliyin maliyyə mənbələrindən səmərəli istifadə olunması, o cümlədən qrant məbləği müəyyən edilərkən həmin layihələrin icrası ilə bağlı həyata keçirilməsi nəzərdə tutulan fəaliyyətin layihə büdcəsinə mütənasibliyinin müəyyən edilməsi məqsədilə hazırlanmışdır.

## 2. Qrant məbləğinin müəyyən edilməsi meyarları

2.1. Agentlik müsabiqəyə təqdim edilmiş layihələrə münasibətdə qrant məbləğlərini aşağıdakı meyarlar nəzərə alınmaqla müəyyən edir:

2.1.1. layihənin icra planında nəzərdə tutulmuş fəaliyyətin, o cümlədən layihənin işçi heyətinin saxlanılması üçün xərclərin layihənin icrası üçün nəzərdə tutulan xərclərə mütənasib olması;

2.1.2. QHT-nin kadr potensialı və layihənin idarə olunması mexanizmləri;

2.1.3. layihənin icrasında digər QHT-nin cəlb edilməsi;

2.1.4. layihə müddətinin müqavilə şərtlərinə uyğunluğu və qarşıya qoyulan məqsədlərin icrası üçün mütənasib olması;

2.1.5. layihənin məqsədinin, nəticələrinin aydın və konkret olması.

## 3. Agentlik tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin hər bir mövzusu üzrə qrant məbləğinin yuxarı həddi

3.1. Agentlik tərəfindən qeyri-hökumət təşkilatlarının qrant maliyyələşməsi ilə bağlı müsabiqələrin hər bir mövzusu üzrə qrant məbləğinin yuxarı həddi aşağıdakı kimi müəyyən edilir:

3.1.1. "Kiçik qrant müsabiqəsi" çərçivəsində hər bir mövzu üzrə - 15000 (on beş min) manat;

3.1.2. "Orta qrant müsabiqəsi" çərçivəsində hər bir mövzu üzrə - 30000 (otuz min) manat;

3.1.3. "Böyük qrant müsabiqəsi" çərçivəsində hər bir mövzu üzrə - 50000 (əlli min) manat;

3.1.4. "Səfər qrantı müsabiqəsi" üzrə - 10000 (on min) manat.

Azərbaycan. - 2023.- 17 sentyabr.- S.4.